# ODLAR YURDU UNİVERSİTETİ
# STRATEJİ İNKİŞAF PLANININ (2022-2027)
# 2023-2024-CÜ TƏDRİS İLİ ÜZRƏ MONİTORİNQ

# HESABATI

**Bakı – 2024**

# MÜNDƏRİCAT


**1. GİRİŞ**........................................................................................................................ 3

**2. STRATEJİ MƏQSƏDLƏR VƏ HƏDƏFLƏR ÜZRƏ İCRA VƏZİYYƏTİ**........................... 3

**3. ƏSAS ÇƏTİNLİKLƏR VƏ MƏHDUDİYYƏTLƏR** .............................................................20

**4. GÖZLƏNİLƏN NƏTİCƏLƏR**.........................................................................................20

**5. NƏTİCƏ VƏ TƏKLİFLƏR**............................................................................................21

1. **GİRİŞ**

Bu monitorinq hesabatı Odlar Yurdu Universitetinin 2022-2027-ci illəri əhatə edən Strateji İnkişaf Planının (SİP) 2023-2024-cü tədris ili üzrə həyata keçirilmiş fəaliyyətlərin qiymətləndirilməsinə həsr olunmuşdur.

Strateji planlaşdırma, Odlar Yurdu Universitetinin ümumi baxışını və ortaq prioritetlərini formalaşdıraraq, təhsilin inkişafına yön verən mühüm bir vasitədir. Təhsilin planlaşdırılması, həm uzaqgörən, həm də praqmatik yanaşma tələb edir.

Bu yanaşma, təhsilin gələcəyini müəyyən etmək, məqsədlərə çatmaq üçün lazımi resursları səfərbər etmək və Odlar Yurdu Universitetinin strateji məqsədlərinə nail olmaq üçün bütün heyətin fəal iştirakını təmin edir. Strateji plan, universitetin təhsil və elmi fəaliyyətində yüksək keyfiyyət standartlarını qoruyaraq, rəqabət qabiliyyətini artırmaq və cəmiyyətin ehtiyaclarına cavab vermək məqsədilə mühüm bir yol xəritəsi rolunu oynayır.

2. **STRATEJİ MƏQSƏDLƏR VƏ HƏDƏFLƏR ÜZRƏ İCRA VƏZİYYƏTİ**

**Strateji məqsəd 1. Əmək bazarının çağırışlarına uyğun keyfiyyətli və innovativ təhsil mühitinin təkmilləşdirilməsi**

**Hədəf 1.** Müasir əmək bazarının tələblərinə uyğun olaraq yeni ixtisasların tədrisə daxil edilməsi;

Odlar Yurdu Universitetində müasir əmək bazarının tələblərinə uyğun olaraq tədrisi təklif olunan ixtisaslarının sayının baza ilinə nisbətdə artırılması başlıca hədəflərdən biri olaraq müəyyən edilmişdir. 2023-2024-cü tədris ili üçün universitetdə bakalavr səviyyəsi üzrə “Filolgiya (ingilis dili və ədəbiyyatı” ixtisasının tədrisi təklif edilmişdir. Bununla da tədrisi təklif olunan ixtisasların sayı 22 olaraq müəyyən edilmişdir. Sözügedən ixtisaslar aşağıdakılardır.

1. Məktəbəqədər təhsil
2. Təhsildə - sosial – psixoloji xidmət
3. Xarici dil müəllimliyi (ingilis dili)

4. Beynəlxalq münasibətlər
5. Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
6. Filologiya (İngilis dili və ədəbiyyatı)
7. Psixologiya
8. Tərcümə (ingilis dili)
9. Dizayn (interyer; qrafik; modelyer)
10. Biznesin idarə edilməsi
11. Dövlət və bələdiyyə idarəetməsi
12. İqtisadiyyat
13. Maliyyə
14. Marketinq
15. Menecment
16. Mühasibat
17. Biologiya
18. Ekologiya
19. İnformasiya texnologiyaları
20. Kompüter mühəndisliyi
21. Sosial iş
22. Turizm işinin təşkili

2023-2024-cü tədris ili üçün universitetdə magistratura səviyyəsi üzrə tədrisi təklif olunan ixtisaslaşmaların sayı 17 olmuşdur. Sözügedən ixtisaslaşmalar aşağıdakılardır.

1. Xarici dilin tədrisi metodikası və metodologiyası (ingilis dili üzrə)
2. Azərbaycan ədəbiyyatı
3. Azərbaycan dili
4. Beynəlxalq iqtisadi münasibətlər
5. Beynəlxalq maliyyə və valyuta-kredit münasibətləri
6. Bank işi
7. Maliyyə nəzarəti və audit
8. Menecment (təhsil, turizm, səhiyyə, ümumi menecment)

9. Marketinq (təhsil, turizm, səhiyyə)
10. Biznesin təşkili və idarə edilməsi
11. Kompüter mühəndisliyi
12. İdarəetmədə informasiya sistemləri
13. Ümumi psixologiya
14. Pedaqoji psixologiya
15. Klinik psixologiya
16. Dizayn və texniki estetika
17. Mikrobiologiya

**Hədəf 2.** Praktiki biliklərin artırılması üçün iş dünyası ilə birgə təcrübə və təlim proqramlarının təşkil edilməsi;

2023-2024-cü tədris ilində ixtisaslara uyğun yerli şirkət və müəssisələrlə ilkin əlaqələr yaradılmış, əməkdaşlıq potensialı qiymətləndirilmiş və istehsalat təcrübəsinin keçirilməsi ilə bağlı Azərbaycan Milli Aerokosmik Agentliyi, SOCAR-Uniper MMC, Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanası PHŞ, Azərbaycan Dəmir Yolları QSC, Azad Azərbaycan Müstəqil Teleradio Kompaniyası, ARB-24 MMC, AFB Bank ASC, Ağ Finans MMC, VİP Academy MMC, Azərmaş MMC, ABA Çocuk Psixologiya Mərkəzi MMC, PrintPoint MMC, İnter MMC, Premium Audit MMC, NTEC Group MMC, Modenis MMC, Codelandia MMC, Vision Academy MMC, və s. kimi onlarla təşkilat ilə müqavilələr imzalanmışdır.

Digər tərəfdən "Karyera və təcrübə" mərkəzi tərəfindən tələbələr üçün bir sıra tədbirlər keçirilmişdir ki, onlardan da bəziləri aşağıdakılardır:

- 15 dekabr 2023-cü il. Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyası (ARPA) İctimai Birliyi ilə İqtisadiyyat və idarəetmə fakültəsinin tələbələri üçün seminar. https://oyu.edu.az/az/news/444
- 11 yanvar 2024-cü il. Təcrübə proqramları ilə bağlı maarifləndirici görüşlərin təşkili. https://oyu.edu.az/az/news/460

**Hədəf 3.** OYU-da daha yüksək elmi dərəcəsi, biliyi, səriştəsi ilə fərqlənən alimlərin, pedaqoqların sayının baza ilinə nisbətdə 10 faiz artırılması;

2023-2024-cü tədris ili üzrə elmi dərəcəsi olan tədqiqatçıların sayı 65 nəfər olaraq müəyyən edilmişdir ki, bu da baza ili olan ötən tədris ili ilə müqayisədə 1.5 faiz artım deməkdir.

Digər tərəfdən 2023-2024-cü tədris ili üzrə Odlar Yurdu Universitetində elmlər doktoru və professor dərəcəsinə malik olan müəllimlərin sayı 13 olaraq müəyyən edilmişdir ki, bu da baza ili olan ötən tədris ili ilə müqayisədə 8.3 faiz daha çoxdur.

**Hədəf 4.** Yeni təhsil standartlarına cavab verən auditoriyaların təşkil edilməsi;

Odlar Yurdu Universitetində 2023-2024-cü tədris ili üzrə proyektor ilə təchiz edilmiş auditoriyaların sayı 48 olaraq müəyyən edilmişdir ki, bu da baza ili olan ötən tədris ili ilə müqayisədə 37.1 faiz daha çoxdur.

Eyni zamanda 2023-2024-cü tədris ili üzrə interaktiv lövhə ilə təchiz edilmiş auditoriyaların sayı 8 olaraq müəyyən edilmişdir ki, bu da baza ili olan ötən tədris ili ilə müqayisədə 33.3 faiz daha çoxdur.

**Hədəf 5.** Elm və Təhsil Nazirliyindən qrif almış fənn proqramlarının sayının artırılması

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyindən qrif almış fənn proqramlarının sayının artırılması üzrə xüsusi fəaliyyət müşahidə olunmaqdadır. Belə ki, bu proqramların sayı 200-ü keçmişdir. Ümumilikdə ötən tədris ili ilə birlikdə Elm və Təhsil Nazirliyindən qrif almış fənn proqramlarının sayı 508 olaraq müəyyən edilmişdir ki, bu da ölkə səviyyəsində olduqca yüksək göstəricidir.

**Hədəf 6.** OYU-nun elektron kitabxanasının təkmilləşdirilməsi;

Bu hədəf üzrə fəaliyyətə başlanılmışdır. Belə ki, bir sıra kitabların elektronlaşdırılması ilə bağlı proses dayanıqlı şəkildə davam etməkdədir.

**Hədəf 7.** Müəllim və tələbə heyətinin müasir kompüter proqram-paketlərindən istifadə bacarıqlarının artırılması;

Strateji İnkişaf Planının mühüm istiqamətlərindən biri də müəllim və tələbə heyətinin rəqəmsal bacarıqlarının, xüsusilə müasir kompüter proqram-paketlərindən istifadə imkanlarının genişləndirilməsi olmuşdur. Bu hədəf, təhsil prosesində informasiya-kommunikasiya texnologiyalarının səmərəli tətbiqinə, rəqəmsal transformasiyaya uyğunlaşmaya və əmək bazarının tələblərinə uyğun kadr hazırlığına xidmət edir.

Sözügedən hədəf üzrə bu sahədə mövcud vəziyyətin öyrənilməsi, təlim ehtiyaclarının müəyyən edilməsi və potensial resursların qiymətləndirilməsi baxımından ilkin zəruri hazırlıq işlərinə ehtiyac olduğu müəyyən edilmişdir. Həmçinin pandemiya dövründə təhsil sistemində baş verən sürətli rəqəmsallaşma, bu istiqamətdə planlı fəaliyyətlərin vacibliyini bir daha ön plana çıxarmışdır.

Növbəti mərhələlərdə bu hədəf üzrə sistemli və mərhələli tədbirlərin həyata keçirilməsi, o cümlədən təlim proqramlarının hazırlanması, təlimçilərin müəyyən edilməsi və texniki infrastrukturun qiymətləndirilməsi nəzərdə tutulur.

**Hədəf 8.** İnnovativ və interaktiv təlim metodlarından istifadənin genişləndirilməsi;

Strateji İnkişaf Planında tədris keyfiyyətinin yüksəldilməsi və tələbəyönümlü təhsil mühitinin yaradılması məqsədilə innovativ və interaktiv təlim metodlarının tətbiqinin genişləndirilməsi mühüm hədəf kimi müəyyən edilmişdir. Bu yanaşma tələbələrin dərs prosesində aktiv iştirakını təmin etmək, onların analitik və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirmək, həmçinin müəllimlərin pedaqoji yanaşmalarında müasir tədris metodlarına keçidi təşviq etmək baxımından əhəmiyyətlidir.

Burada həm müəllim heyətinin yeni tədris metodlarına adaptasiyası üçün hazırlıq mərhələsinin aparılmasının zəruriliyi, həm də bu sahədə institusional

mexanizmlərin və resurs bazasının tam formalaşması vacib amildir. Bununla yanaşı, mövcud kurikulumların və tədris planlarının da interaktiv yanaşmalarla inteqrasiyasına dair təhlillərin aparılması gələcək tədbirlərin daha effektiv şəkildə həyata keçirilməsinə zəmin yarada bilər.

Növbəti mərhələlərdə bu istiqamətdə metodoloji dəstək materiallarının hazırlanması, müəllimlər üçün maarifləndirici və praktiki təlimlərin təşkili, eləcə də innovativ texnologiyaların təhsil mühitinə inteqrasiyası prioritetlər sırasına daxil ediləcəkdir.

**Hədəf 9.** Tələbə qəbulunun sayını baza ilinə nisbətdə ən azı 30 faiz genişləndirmək;

Odlar Yurdu Universitetində 2023-2024-cü tədris ili üzrə bakalavr səviyyəsinə qəbul olan tələbə sayı 847 nəfər müəyyən edilmişdir. Eyni zamanda 2022-2023-cü tədris ili üzrə magistratura səviyyəsində 177 nəfər tələbə olması müəyyən edilmişdir ki bu da baza ili olan ötən tədris ili ilə müqayisədə 60.9 faiz daha çoxdur

Bütövlükdə isə  Odlar Yurdu Universitetində 2023-2024-cü tədris ili üzrə qəbul olan tələbə sayı 1024 nəfər müəyyən edilmişdir. Prosesin intensivləşməsinə ehtiyav vardır.

**Hədəf 10.** İnklüziv və müyəssər mühitin təkmilləşdirilməsi və bu kontekstdə pandusların qurulması;

Universitetin Strateji İnkişaf Planında bütün tələbələr üçün bərabər təhsil imkanlarının təmin olunması və inklüziv dəyərlərin təşviqi önəmli istiqamətlərdən biridir. Bu çərçivədə fiziki məkanların əlçatanlığının artırılması, o cümlədən xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün pandusların qurulması və digər müyəssərlik tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Sözügedən hədəfin reallaşdırılması kontekstində mövcud vəziyyətin qiymətləndirilməsi və ehtiyacların müəyyənləşdirilməsi məqsədilə daxili monitorinq və texniki təhlillərin aparılmasının vacibliyi dərk edilmişdir.

Həmçinin beynəlxalq təcrübələrə əsaslanan müyəssər mühit standartlarının araşdırılması və bu sahədə normativ baza ilə uyğunluğun təmin olunması gələcək mərhələlər üçün zəruri ilkin addımlar kimi planlaşdırılır.

İnklüzivliyin təmin edilməsi universitetin sosial məsuliyyət prinsipləri ilə sıx bağlı olduğu üçün bu istiqamətdə fəaliyyətlərin davamlı və mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Müvafiq fiziki infrastrukturun yaradılması ilə yanaşı, inklüzivlik üzrə maarifləndirmə tədbirlərinin keçirilməsi də universitetin gələcək tədris illəri üzrə iş planında öz əksini tapacaqdır.

**Hədəf 11.** Yeməkxana infrastruktunun təkmilləşdirilməsi

Universitetin Strateji İnkişaf Planında tələbə rifahının və sosial təminat imkanlarının artırılması istiqamətində nəzərdə tutulan əsas hədəflərdən biri də yeməkxana infrastrukturunun müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsidir. Bu hədəf, tələbə və əməkdaşların gündəlik ehtiyaclarının daha yüksək səviyyədə qarşılanmasına, sağlam qidalanma şəraitinin yaradılmasına və ümumi təhsil mühitinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Sözügedən hədəfin reallaşdırılması üzrə mövcud yeməkxana şəraitinin qiymətləndirilməsi, istifadəçi məmnuniyyətinin öyrənilməsi və yenidənqurma üçün zəruri texniki və maliyyə resurslarının planlaşdırılması məqsədilə hazırlıq mərhələsinə ehtiyac olduğu müəyyən edilmişdir.

**Strateji məqsəd 2. Tələbələrdə yenilik və yaradıcılığa cəsarətin yaradılmasını inkişaf etdirmək**

**Hədəf 1.** Tələbələrin startap və innovativ layihələrə qoşulmasını təşviq edən inkubasiya mərkəzlərinin yaradılması;

Rəqəmsallaşan və innovasiyaya əsaslanan qlobal təhsil mühitində tələbələrin sahibkarlıq düşüncəsinin formalaşdırılması, yaradıcılıq potensialının reallaşdırılması və real layihələr üzərində işləməyə təşviq olunması universitetin başlıca strateji məqsədləri sırasındadır. Bu baxımdan tələbələr üçün startap və

innovativ təşəbbüslərin dəstəkləndiyi inkubasiya mərkəzlərinin yaradılması mühüm hədəf kimi müəyyən edilmişdir.

Sözügedən hədəfin reallaşdırılması müstəvisində Odlar Yurdu Universitetində 23.11.2023-cü ildə “Startap və inkubasiya” Mərkəzi yaradılmışdır.

**Hədəf 2.** Yaradıcılığı stimullaşdırmaq üçün müxtəlif müsabiqə, hackathon və innovasiya festivallarının təşkili

Strateji İnkişaf Planında gənclərin yaradıcılıq və innovativ düşüncə bacarıqlarının inkişaf etdirilməsi, eləcə də onların ideyalarını reallaşdırmaq üçün təşviqedici mühitin yaradılması əsas hədəflərdən biri kimi müəyyən olunmuşdur. Bu kontekstdə müxtəlif səviyyəli müsabiqələrin, hakatonların və innovasiya festivallarının təşkili tələbələr üçün ilhamverici imkanlar yaratmaq, onların sosial və texnoloji təşəbbüslərini stimullaşdırmaq baxımından xüsusi əhəmiyyət daşıyır.

Bu hədəf üzrə təcrübələrin öyrənilməsi, konseptual çərçivənin müəyyənləşdirilməsi və mövcud potensialın qiymətləndirilməsi məqsədilə zəruri hazırlıq işlərinin aparılması ehtiyacı müəyyən edilmişdir.

**Strateji məqsəd 3. Universitetin analitik monitorinq və qiymətləndirmə mexanizmlərinin davamlı inkişaf etdirilməsi**

**Hədəf 1.** Təhsil keyfiyyətinin artırılması üçün başlıca meyarlarının müəyyən edilməsi;

Sözügedən hədəf üzrə fəaliyyət başlanılmışdır.

**Hədəf 2.** Tələbələrin imtahan-monitorinq nəticələrinin təhlili;

2023-2024-cü tədris ili üzrə tələbələrin imtahan-monitorinq nəticələri Birləşmiş Fakültələr Departamenti tərəfindən təhlil edilmişdir. Bu təhlilə “Keyfiyyətin təminatı və qiymətləndirmə” Departamenti tərəfindən nəzarət edilmişdir.

**Hədəf 3.** Monitorinq və nəzarət mexanizminin formalaşdırılması və tətbiq edilməsi;

Monitorinq və nəzarət mexanizminin formalaşdırılması və tətbiq edilməsi məqsədilə Odlar Yurdu Universitetində "Keyfiyyətin təminatı və qiymətləndirmə" Departamenti fəaliyyət göstərməkdədir. Bu departamentin başlıca fəaliyyət istiqamətlərindən biri də məhz monitorinq və nəzarət mexanizmlərinin mütəmadiliyinin qorunmasıdır.

**Hədəf 4.** Monitorinq zamanı ortaya çıxan problemlərin aradan qaldırılması məqsədilə işlərin görülməsi;

2023-2024-cü tədris ili üzrə sözügedən problemlər "Keyfiyyətin təminatı və qiymətləndirmə" Departamenti tərəfindən Odlar Yurdu Universitetinin Elmi Şurasında müzakirə edilmiş və problemlərin aradan qaldırılması məqsədilə müvafiq təkliflər səsləndirilmişdir.

**Hədəf 5.** Sistemli şəkildə Universitetdə müxtəlif istiqamətlər üzrə mütəmadi monitorinqlərin aparılması;

Sözügedən hədəf üzrə təhsilalanlar ilə məmnunluq sorğusu, akademik heyyətin qiymətləndirilməsi və tələbələrin fənnlər üzrə məmnunluğu kimi istiqamətlər üzrə monitorinq və sorğular aparılmışdır.

**Hədəf 6.** Professor-müəllim heyyətinin reytinqinin müəyyən edilməsi meyyarlarının hazırlanması və "keyfiyyət elçiləri" nin köməyi ilə monitorinqin aparılmasını təmin etmək;

Sözügedən hədəf üzrə fəaliyyətə başlanılmışdır. Strateji dövrdə Odlar Yurdu Universitetinin əməkdaşlarının Akademik Performansın Qiymətləndirilməsi İndikatorları işlənib hazırlanmışdır. Paralel olaraq keyfiyyət elçilərinin köməyi ilə monitorinqlər mütəmadi aparılmaqdadır.

**Hədəf 7.** Tələbə məmunluğunu əldə etmək naminə “şikayət və təkliflər” qutusu üsulundan istifadə etmək;

Universitetin tələbə yönümlü idarəetmə prinsiplərinin gücləndirilməsi və tədris-mühit keyfiyyətinin davamlı olaraq yaxşılaşdırılması məqsədilə tələbələrin rəy və təkliflərinin sistemli şəkildə toplanması önəmli strateji hədəflərdən biri kimi müəyyən edilmişdir. Bu məqsədlə fiziki və ya elektron formada “şikayət və təkliflər” qutusu mexanizminin tətbiqi tələbələrin fəal iştirakını təmin etmək, onların ehtiyac və gözləntilərini daha dəqiq şəkildə müəyyənləşdirmək baxımından faydalı alət kimi nəzərdə tutulmuşdur.

Növbəti mərhələlərdə tələbələrin anonim və rahat şəkildə fikir bildirmələrini təmin edən platformaların yaradılması, daxil olan təkliflərin operativ şəkildə qiymətləndirilməsi və nəticələrin tələbələrlə bölüşülməsi üzrə sistemli mexanizmlərin qurulması planlaşdırılır. Bu yanaşma tələbə məmnuniyyətinin artırılması ilə yanaşı, universitetdə açıq və şəffaf idarəetmənin inkişafına da töhfə verəcəkdir.

**Hədəf 8.** Qiymətləndirmə sisteminin səmərəliliyini artırmaq, davamlılığını təmin etmək;

SİP-də tədris prosesinin əsas komponentlərindən biri olan qiymətləndirmə sisteminin daha şəffaf, obyektiv və nəticəyönümlü əsaslarla təkmilləşdirilməsi başlıca hədəflərdən biri kimi müəyyən edilmişdir. Bu yanaşma, həm tələbələrin öyrənmə nəticələrinin dəqiq ölçülməsi, həm də akademik heyətin tədris fəaliyyətinin stimullaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə Akademik Performansın Qiymətləndirilməsi İndikatorları universitetinin saytında (oyu.edu.az) yerləşdirilmişdir ki, bu da prosesin elektronlaşma ilə həm səmərəliliyini həm də davamlılığının artırılmasını təmin etməkdədir.

**Hədəf 9.** Tələbələrin sosial vəziyyətlərini müəyyən edən monitorinqlərin keçirilməsi və təhlili

Bu çərçivədə tələbələrin sosial vəziyyətlərini müəyyən edən mütəmadi monitorinqlərin keçirilməsi, nəticələrin sistemli şəkildə təhlil olunması və ehtiyaca əsaslanan dəstək tədbirlərinin planlaşdırılması mühüm hədəf kimi müəyyənləşdirilmişdir. Sözügedən hədəfin reallaşdırılması məqsədilə mövcud vəziyyətin sistemli şəkildə dəyərləndirilməsi üçün metodoloji çərçivənin hazırlanması, etibarlı sorğu alətlərinin seçilməsi və məlumatların toplanması mexanizmlərinin qurulması kimi zəruri hazırlıq mərhələsinə ehtiyac olduğu müəyyən edilmişdir.

**Strateji Məqsəd 4. Məzunlarla iş prosesinin effektivliyinin artırılması**

**Hədəf 1.** Məzunlarla əlaqələri gücləndirmək üçün onların iştirak etdiyi peşəkar şəbəkə və tədbirlərin təşkil edilməsi;

Bu kontekstdə məzunların iştirakı ilə peşəkar şəbəkələşmə tədbirlərinin, forumların, görüşlərin və panel müzakirələrin təşkili həm universitet-məzun münasibətlərinin möhkəmləndirilməsi, həm də mövcud tələbələr üçün motivasiya və karyera dəstəyi baxımından əhəmiyyətli vasitə hesab olunur.

Hədəfin reallaşdırılması məqsədilə effektiv məzun siyasətinin formalaşdırılması üçün mövcud potensialın təhlili, məzun bazasının yenilənməsi və onların iştirakı ilə təşkil ediləcək tədbirlərin formatı üzrə konseptual yanaşmanın hazırlanması kimi ilkin planlaşdırma işlərinə ehtiyac olduğu müəyyən edilmişdir.

**Hədəf 2.** Müəllim, tələbə və məzunlar üçün ortaq layihə və tədqiqat fəaliyyətlərinin stimullaşdırılması;

Bu istiqamət, akademik inteqrasiyanın gücləndirilməsi, bilik və təcrübə mübadiləsinin təşkili, eyni zamanda tələbələrin real layihə və tədqiqat mühitinə cəlb olunması baxımından dəyərli imkanlar yaradır.

Sözügedən hədəfin reallaşdırılması məqsədilə effektiv əməkdaşlıq formatlarının müəyyən olunması, maraqlı tərəflərin iştirak imkanlarının dəyərləndirilməsi və stimullaşdırıcı mexanizmlərin hazırlanması üçün konseptual və təşkilati baxımdan hazırlıq işlərinə ehtiyac olduğu müəyyən edilmişdir.

Növbəti mərhələlərdə bu istiqamətdə innovativ xarakterli ortaq layihələrin təşviqi, müəllim-tələbə-məzun üçbucağında əməkdaşlıq imkanlarının artırılması, habelə bu fəaliyyətlərin akademik baxımdan dəstəklənməsi nəzərdə tutulur. Bu yanaşma, universitetin elmi mühitində iştirakçılığı gücləndirmək və biliklərin birgə istehsalını stimullaşdırmaq məqsədinə xidmət edəcəkdir.

**Hədəf 3.** Məzunların əmək bazarındakı fəaliyyətinin izlənilməsi sisteminin mütərəqqi mexanizmlərini qurmaq;

Odlar Yurdu Universitetində məzunların əmək bazarındakı fəaliyyətinin izlənilməsi sisteminin formalaşdırılması məqsədilə məzunlar ilə əlaqələr qurulmuş və onların məşğulluq vəziyyəti haqqında məlumatlar öyrənilmişdir.

**Hədəf 4.** Məzunlar ilə bağlı mütəmadi sorğuların aparılması.

Odlar Yurdu Universitetində hər tədris ilində məzunlar ilə sorğular aparılmaqdadır. 2023-2024-cü tədris ili üzrə məzunlarla anonim və könüllülük prinsipləri əsasında sorğu aparılmışdır. Belə ki, kağız daşıyıcılarda olan sorğular Diplom şöbəsinə təqdim edilmişdir. Məzunlar diplomlarını aldıqları təqdirdə isə bu sorğulardan keçmişlərdir. 2023-2024-cü tədris ili üzrə bakalavr səviyyəsi üzrə 168 nəfərdən, magistratura səviyyəsi üzrə 94 nəfər sorğuda iştirak etmişdir.

**Strateji Məqsəd 5. Universitetin elmi fəaliyyətinin gücləndirilməsi**

**Hədəf 1.** Scopus indeksli jurnallarda dərc olunan məqalələrin sayının baza ilinə nisbətdə 50% artırmaq;

2023-cü il üzrə Scopus indeksli jurnallarda dərc olunan məqalələrinin sayı 21 olaraq müəyyən edilmişdir. Bu isə baza ili ilə müqayisədə 10.5 faiz artım deməkdir.

**Hədəf 2.** Universitet əməkdaşlarının Scopus bazasında elmi məqalələrinə edilən istinadların (istinad indeksi) baza ilinə nisbətdə ən azı 2 dəfə artırmaq;

2023-2024-cü tədris ilində Odlar Yurdu Universitetinin əməkdaşlarının Scopus bazasındakı elmi məqalələrinə istinad indeksi 248 olaraq müəyyən edilmişdir ki, bu da baza ili olan ötən tədris ili ilə müqayisədə 3.5 dəfəlik artım deməkdir.

**Hədəf 3.** Scopus və yaxud Web of Science indeksli beynəlxalq konfrans təşkil etmək;

Odlar Yurdu Universitetinin təşkilatçılığı ilə 11-12 aprel 2024-cü il tarixində Scopus indeksli "Ağıllı Ətraf Mühit və Yaşıl Texnologiyalar" (ICSEGT – 2024) adlı beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransın məqalələr toplusu Springer Nəşriyyat Evində çap ediləcəkdir.

**Hədəf 4.** "Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri" jurnalının elmi bazalara daxil edilməsini təşkil etmək;

"Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji Xəbərləri" Jurnalı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyanın tövsiyyə etdiyi nəşrlər siyahısındadır. Sözügedən istiqamət üzrə ilkin analizlərin aparılmasının məqsədəuyğunluğu müəyyən edilmiş və fəaliyyətə başlanılmışdır.

**Hədəf 5.** Yeni elmi-tədqiqat strategiyasının formalaşdırılması;

Odlar Yurdu Universitetinin 2022-2027-ci illəri əhatə edən yeni elmi-tədqiqat strategiyası formalaşdırılmış və 04.10.2022-ci ildə təsdiq edilmişdir. Hədəf tam icra olunmuşdur.

**Hədəf 6.** Elmi-tədqiqat işlərinin nəticələrinin tədrisdə, magistr və doktorluq işlərində tətbiqi;

Odlar Yurdu Universitetində elmi-tədqiqat işlərinin tədris, magistr və doktorluq işlərində tətbiq edilməsi ilə bağlı fəaliyyət davam etməkdədir. Belə ki, Odlar Yurdu Universitetinin təşkilatçılığı ilə 11-12 aprel 2024-cü il tarixində Scopus indeksli "Ağıllı Ətraf Mühit və Yaşıl Texnologiyalar" (ICSEGT – 2024) adlı beynəlxalq elmi konfransında doktorant tələbələrinin elmi əsərləri çap edilmiş və bu elmi əsərlərdən dissertasiyalarda istifadə edilmişdir.

**Hədəf 7.** Əqli mülkiyyətin qorunmasına yönəlmiş anti-plagiat sisteminin təkmilləşdirilməsi.

Odlar Yurdu Universitetində 2023-2024-cü tədris ilindən etibarən əqli mülkiyyətin qorunmasına yönəlmiş anti-plagiat sisteminin təkmilləşdirilməsi məqsədilə Turnitin plagiat sistemindən istifadə başlanılmışdır.

**Strateji məqsəd 6. Universitetin beynəlxalq tanınması fəaliyyətinin təkmilləşdirilməsi**

**Hədəf 1.** Universitetinin xarici universitetlər ilə yeni əlaqələrinin qurulması;

2023-2024-cü tədris ili üzrə aşağıdakı universitetlər ilə əməkdaşlıq protokolları qurulmuşdur.

13.10.2023 – World Peace University

22.12.2023 – Alfraganus University

16.10.2023 – Southern University

28.12.2023 – Ege Universiteti

04.06.2024 – Düzce Universiteti

**Hədəf 2.** Beynəlxalq akkreditasiyaların alınmasının təmini;

Universitetin beynəlxalq rəqabət qabiliyyətinin artırılması, tədris və tədqiqat fəaliyyətlərinin qlobal standartlara uyğunlaşdırılması məqsədilə beynəlxalq akkreditasiyaların əldə olunması strateji hədəflərdən biri kimi müəyyən edilmişdir. Bu hədəf, təhsil proqramlarının keyfiyyət göstəricilərinin yüksəldilməsi və universitet diplomlarının beynəlxalq səviyyədə tanınmasını təmin etmək baxımından xüsusi əhəmiyyət kəsb edir.

Sözügedən istiqamətdə beynəlxalq akkreditasiyaya hazırlıq mərhələsinin kompleks və çoxşaxəli xarakter daşıdığı nəzərə alınaraq, bu sahədə ilkin vəziyyətin qiymətləndirilməsi, uyğun proqramların seçilməsi, tələblərin təhlili və daxili uyğunlaşdırma işlərinin aparılması zəruri ilkin addımlar kimi müəyyən edilmişdir.

**Hədəf 3.** Tərəfdaş olduğumuz beynəlxalq səviyyəli qrant layihələrinin sayının artırılması;

Universitetin beynəlmiləlləşmə strategiyasının əsas istiqamətlərindən biri nüfuzlu beynəlxalq qrant layihələrində tərəfdaşlıq imkanlarının genişləndirilməsi və bu layihələr vasitəsilə elmi, tədris və institusional potensialın inkişaf etdirilməsidir. Bu hədəf, universitet əməkdaşlarının beynəlxalq tədqiqat şəbəkələrinə inteqrasiyası, qabaqcıl təcrübələrin mənimsənilməsi və xarici maliyyə resurslarının cəlbi baxımından əhəmiyyətli prioritetlər sırasındadır.

Bu hədəfin reallaşması məqsədilə beynəlxalq qrant layihələrində iştirakın tələb etdiyi təşkilati hazırlıq, insan resurslarının formalaşdırılması və layihə idarəetmə bacarıqlarının inkişaf etdirilməsi məqsədilə ilkin dəyərləndirmə və ehtiyac təhlillərinin aparılması vacib mərhələ kimi nəzərdən keçirilmişdir. 2022-2023-cü tədris ili üzrə Erasmus+ proqramı çərçivəsində "Azərbaycan Rektorlar Konfransının yaradılması" layihəsində Odlar Yurdu Universiteti tərəfdaş kimi çıxış etməkdədir. Eyni zamanda 2023-2024-cü tədris ili üzrə Azərbaycan ali təhsil müəssisələrində davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi”

(ENGAGE) adlı Erasmus+ layihəsində Odlar Yurdu Universiteti tərəfdaş kimi çıxış etməkdədir.

**Hədəf 4.** Əcnəbi tələbələrlə iş keyfiyyətinin daha da təkmilləşdirilməsi və qəbul sayının baza ilinə nisbətdə ən azı 50 faiz artırılması;

2023-2024-cü tədris ili üzrə əcnəbi tələbələrin qəbul sayı 713 nəfər olaraq müəyyən edilmişdir ki, ki bu da baza ili olan ötən tədris ili ilə müqayisədə 4.5 faiz daha çoxdur.

**Hədəf 5.** Universitetin müəllim və tələbələrinin beynəlxalq konfranslarda iştirakını və mübadilə proqramlarına cəlb edilməsini genişləndirmək;

Odlar Yurdu Universitetinin beynəlxalq əlaqələrinin gücləndirilməsi və qlobal elm-təhsil mühitinə inteqrasiyasının təmin edilməsi məqsədilə müəllim və tələbələrin beynəlxalq konfranslarda iştirakının artırılması və mübadilə proqramlarına fəal şəkildə cəlb olunması strateji hədəflərdən biri kimi müəyyən edilmişdir. Bu istiqamət akademik heyətin elmi fəaliyyətinin beynəlxalq tanıdılması, tələbələrin qlobal təcrübə qazanması və universitetin xaricdə təmsilçiliyinin gücləndirilməsi baxımından əhəmiyyətlidir.

Odlar Yurdu Universitetinin əməkdaşları aşağıdakı Scopus indeksli beynəlxalq konfranslarda iştirak etmiş və 88 elmi məqalə bu konfranslarda çap edilərək Scopus elmmetriya bazasında indekslənmişdir.

- International Conference on Computer Science Electronics and Information, ICCSEI 2023
- International Scientific Forum on Modern Trends in Sustainable Development of Biological Sciences, IFBioScFU 2024
- 1st International Conference on Smart Environment and Green Technologies, ICSEGT 2024

**Hədəf 6.** Əməkdaşların bilik, bacarıq və vərdişlərinin artırılması üçün zəruri tədbirlərin təşkili, yüksək ixtisaslı kadrların dəvət olunması, yerli və beynəlxalq təlimlərin həyata keçirilməsi;

Universitetin insan resurslarının inkişafı sahəsində strateji məqsədlərindən biri əməkdaşların peşəkar potensialının gücləndirilməsi, müasir bilik və bacarıqlarla təchiz olunması və bu məqsədlə zəruri yerli və beynəlxalq təlimlərin həyata keçirilməsi, eləcə də yüksək ixtisaslı kadrların tədris və idarəetmə proseslərinə cəlb olunmasıdır. Bu istiqamət universitetin rəqabətqabiliyyətliliyinin və akademik keyfiyyətinin artırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Bu sahədə mövcud ehtiyacların təhlili, prioritet bacarıq sahələrinin müəyyən edilməsi və əməkdaşlar üçün məqsədyönlü inkişaf planlarının hazırlanması zəruri hazırlıq mərhələsi kimi dəyərləndirilmişdir.

**Hədəf 7.** Beynəlmiləlləşmə siyasətinin yenilənməsi

Odlar Yurdu Universitetində beynəlmiləlləşmə siyasəti yenilənmiş və 2022-2027-ci illəri əhatə edən beynəlmiləlləşmə siyasəti 04.10.2022-ci ildə təsdiq edilmişdir. Hədəf tam icra olunmuşdur.

## 3. ƏSAS ÇƏTİNLİKLƏR VƏ MƏHDUDİYYƏTLƏR

Strateji hədəflərə doğru atılan addımlar zamanı ümumilikdə müsbət meyillərlə yanaşı, bir sıra obyektiv və subyektiv xarakterli çətinliklər də müşahidə olunmuşdur. Bu çətinliklər bəzi fəaliyyətlərin planlaşdırıldığı tempdə icrasına və nəticələrin gözlənilən səviyyədə əldə olunmasına müəyyən təsirlər göstərmişdir.

Məhdudiyyətlər əsasən təşkilati uyğunlaşma, resurs təminatı, insan kapitalının idarə olunması, institusional mexanizmlərin yetkinliyi və xarici mühit faktorları ilə bağlı olmuşdur. Bəzi hallarda, dəyişən şəraitə operativ uyğunlaşma ehtiyacı planlaşdırılmış fəaliyyətlərin mərhələli həyata keçirilməsini zəruri etmişdir.

Bununla yanaşı, daxili imkanların səfərbər olunması və dəyişikliklərə çevik yanaşma göstərilməsi hesabına mövcud çətinliklər minimuma endirilməyə çalışılmış, gələcək mərhələlər üçün təkmilləşdirilmiş yanaşmaların əsasları formalaşdırılmışdır. Bu çətinliklər həm də növbəti dövrlərdə daha effektiv planlaşdırma, prioritetləşdirmə və resurs yönümlü idarəetmə üçün təcrübə mənbəyi olmuşdur.

## 4. GÖZLƏNİLƏN NƏTİCƏLƏR

2022-2027-ci illəri əhatə edən SİP-in yerinə yetirilməsi aşağıdakı nəticələrin əldə edilməsinə imkan yaradacaq:

- Odlar Yurdu Universitetinin Azərbaycanın qabaqcıl ali təhsil müəssisələri sırasında mövqeyinin daha da güclənməsi;
- Tələbələrdə kreativ düşüncə mexanizmlərinin inkişaf etdirilməsi;
- Karyera və məzunlar ilə iş prosesinin təkmilləşdirilməsi;
- Universitetin beynəlxalq elm və təhsil sisteminə inteqrasiyasının sürətlənməsi;
- Müasir tələblərə cavab verən pedaqoji kadr hazırlığının beynəlxalq standartlara uyğun ixtisas və istiqamətlər üzrə həyata keçirilməsi;
- OYU-nun maddi-texniki bazasının və tədris-metodiki təminatının yenilənməsi və təkmilləşdirilməsi;

- Xarici tələbələrin sayında artımın müşahidə olunması;
- Kadr hazırlığı prosesinin əmək bazarının real ehtiyaclarına uyğunlaşdırılması;
- Beynəlxalq standartlara uyğun keyfiyyətin idarə olunması və təminatı sisteminin formalaşdırılması;
- Müəllim və tələbələrin qarşılıqlı mübadilə imkanlarının genişləndirilməsi;
- Qlobal səviyyədə fundamental və tətbiqi elmi-tədqiqatların həyata keçirilməsi

## 5. NƏTİCƏ VƏ TƏKLİFLƏR

Strateji İnkişaf Planının monitorinqi göstərir ki, müəyyən olunmuş məqsəd və hədəflər istiqamətində ümumilikdə sistemli və məqsədyönlü fəaliyyətlər həyata keçirilmişdir. İcra prosesi ərzində əldə olunan irəliləyişlər universitetin davamlı inkişafına xidmət etməklə yanaşı, gələcək mərhələlər üçün də əsaslı zəmin yaratmışdır.

Monitorinq nəticələri göstərir ki, planın icrasında həm müsbət təcrübələr, həm də inkişaf etdirilməyə ehtiyac duyulan sahələr mövcuddur. Bu baxımdan, növbəti mərhələlərdə strateji idarəetmənin daha da səmərəli qurulması və fəaliyyətlərin hədəfyönlü şəkildə davam etdirilməsi üçün aşağıdakı istiqamətlər üzrə tövsiyə xarakterli yanaşmalar təklif olunur:

- Mövcud resurslardan daha optimal istifadə;
- Tətbiq mexanizmlərinin və monitorinq sistemlərinin daha da təkmilləşdirilməsi;
- İnsan resurslarının inkişafına yönəlik sistemli və davamlı tədbirlərin təşkili;
- Daxili və xarici tərəfdaşlıqların gücləndirilməsi və innovativ yanaşmaların təşviqi;
- Risklərin proaktiv idarə olunması və dəyişən şəraitə uyğun çevik planlaşdırma alətlərinin tətbiqi;

- Tələbə və əməkdaş məmnunluğunu artıracaq iştirakçı və inklüziv idarəetmə yanaşmalarının gücləndirilməsi.

Bu monitorinq hesabatı SİP-in 2023-2024-cü tədris ili üzrə həyata keçirilmiş işlərin qiymətləndirilməsinə əsaslanır. Bu prosesin davamlı izlənilməsi və təkmilləşdirilməsi universitetin uzunmüddətli inkişaf strategiyasının uğurla həyata keçirilməsinə töhfə verəcəkdir.